**Respublika.** - 2025.- 27 aprel. - № 84. - S. 7.

# O, sevgi dolu bir ürəkdi...

**Zümrüd Qurbanqızı**

**Həyat qəribəlik, təsadüf və ziddiyyətlərlə doludur. Dünyaya gəlişimizdən, ta onu tərk edənədək başımıza gələcəklərdən xəbərsiz yaşayır, yaşadıqlarımızı bir qismət, alın yazısı kimi qəbul edir, bəzən xeyirlə şərin mübarizəsinin tən ortasında tapırıq özümüzü. Sürprizləri bitib-tükənmir, tam, bütöv olmaq üçün digər yarımızı axtarır, ona qovuşmaq naminə döyüşür, çarpışırıq. Bəzən istəklərimiz reallığa çevrilir, bəzən də sevdamıza qovuşa bilmirik. Ya da ki, birgə yaşanan bir ömür yarıda qırılır, çox qısa olur. Beləcə şair demiş:**

**Aylar ötür, illər keçir, axın olur,**
**Yadlar gəlir, doğma olur, yaxın olur,**
**Məhəbbətlə keçən ömür nağıl olur...**

"Həyat sən nə qəribəsən" mahnısında deyildiyi kimi, yaxın qonşu olmadılar, ayrı-ayrı doğulub, axır gəlib bir oldular. Zərifə və Heydər Əliyevlər cütlüyü eyni ildə, eyni fəsildə, eyni bölgədə dünyaya göz açıb illər sonra başqa bir şəhərdə bir-birilərini tapıb talelərini birləşdirdilər. Bu cütlüyün həyatı, yaşadıqları birgə, qısa, lakin məhəbbətlə keçən ömürləri də bir nağıl oldu... Hər ikisi nur payladı. Birisi qaranlıq gözlərə işıq verdi, günəşi qorudu. Digəri fikirləri, düşüncələri aydınlaşdırdı, işıqlı, nurlu bir sabahı gətirdi, dünyaya günəş kimi doğacaq bir məmləkətin memarına çevrildi. Bu ikinin bir olması tale, qismət, yoxsa təsadüf, ya zərurət idimi? Söyləmək çətindir. Ancaq illər sonra Zərifə xanım istər ölkədə, istərsə də xaricdə iclas salonlarındakı çıxışlarında məharətlə müxtəlif suallar qoyub onlara cavab verən Heydər Əliyevin qüsursuz nitqindən, gözəl diksiyasından, bir sözlə, qeyri-adi natiqlik istedadından heyranlıqla söz açaraq yaxın rəfiqəsi Zəhra Quliyevaya demişdi: "Zəhra, Heydər Əliyevi bizə Allah göndərib. Onu qorumaq lazımdır...".

Bəli, bu cütlük birlikdə olmaq, bir-birini qorumaq və sevmək üçün gəlmişdi bu dünyaya. Heydər Əliyev ömrünün sonuna qədər xatirəsini əziz tutduğu Zərifə xanım haqqında söyləyirdi: "...böyük Yaradan ona elə böyük ürək bəxş edib, qəlbinə elə parlaq bir nur çiləmişdi ki, onunla rastlaşan, ünsiyyətdə olan hər bir kəs, ilk növbədə, özündə ümid, təsəlli, inam, sakitlik tapar, könülləri xeyirxahlıq şəfəqinin şölələri ilə işıqlanardı". Bu şöləni, bu nuru o paylayardı: Zərifə Əliyeva...

Böyük şəxsiyyətlər haqqında bəzən cild-cild kitablar yazılır, onların həyat və fəaliyyətləri dəyərli faktlar əsasında təqdim olunur, oxuyur, yaxından tanış olur, bəzən o müəlliflərə minnətdarlıq duyğusu da yaranır içimizdə. Oxucu kitablarda qəhrəmanının özəl, başqalarından fərqli keyfiyyətlərinə, incə detallara daha çox maraq göstərir. Zərifə və Heydər Əliyev cütlüyündən, bu qeyri-adi insanların taleyindən, onların birgə həyatından, bu xoşbəxt ailədə hökm sürən ab-havadan, onların bir-birinə sevgisindən bəhs edən kitablar, yazılar da eləcə. Çünki fərqli mühitlərdə doğulub böyüyən bu iki şəxsiyyəti bir-birinə yaxınlaşdıran oxşar cəhətləri, pərdəarxası məqamları bilmək insanlarda həmişə maraq doğurub. İndi cismani yoxluqlarından sonra dilə gələn xatirələrin işığında bu cütlüyün canlanan sevgi dolu obrazları qəribəliklər, çətinliklər, ziddiyyətlərlə səciyyələnən həyatlarının həm də nə qədər mənalı olduğunu göstərir bizə.

1923-cü il aprelin 28-i Zərifə Əliyevanın doğum günüdür. O, Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Şahtaxtı kəndində görkəmli ictimai və dövlət xadimi, xalqımızın böyük oğlu, Azərbaycanda sovet səhiyyəsinin təşkilatçısı, KP MK-nın katibi olmuş Əziz Əliyevin ailəsində dünyaya gəlib. Bütün ailəsi soyqırımına, deportasiyaya məruz qalan, ermənilərin xalqımıza qarşı törətdiyi faciələri gözləri ilə görən, doğma diyarı, Qərbi Azərbaycanı tərk edərək Naxçıvanda məskunlaşan, sonra Bakıya köçən Əziz Əliyev 1938-ci il repressiyasından möcüzə nəticəsində xilas olsa da 50-ci illərin əvvəlində o acıları yaşamışdı. Ədalətsizliklə qarşılaşmış, amma ruhdan düşməmişdi. Sonralar, 1998-ci il mayın 14-də Əziz Əliyevin 100 illiyi münasibətilə keçirilən tədbirdə Heydər Əliyev demişdi: "...Bir insan kimi, bir ata kimi olduqca gözəl adam idi. Sadə, məhrəm, ağıllı həmsöhbət olan bu insan tarixdən, ədəbiyyat və incəsənətdən çox şey bilirdi... Azərbaycan incəsənəti və ədəbiyyatının Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Bülbül, Niyazi, Səməd Vurğun, Süleyman Rüstəm, Qara Qarayev və bir çox başqaları kimi görkəmli xadimləri ilə onun çox yaxın, mehriban və ailəvi münasibətləri vardı...".

Təbii ki, bütün bunlar ailədə böyüyən uşaqların şüurunda, yaddaşlarında dərin iz buraxır, onların tərbiyəsində təsirsiz qalmırdı. Ailənin başçısı Əziz Əliyevin təbiətindəki sadəlik övladlarına da sirayət etmişdi, onlar heç bir zaman atalarının tutduğu yüksək vəzifələrə görə qürrələnmirdilər. Zərifə xanım da

heç vaxt hansısa qeyri-adi, bahalı paltar geyinməz, sadə görünməyə çalışar, özünü başqalarından fərqləndirməzdi. Heydər Əliyevin dediyi kimi: "O, insanları sevərdi, heç vaxt heç kimi incitməz, heç kimi naümid qoymaz, heç kimə kömək etməkdən imtina etməzdi".

Heydər Əliyevin atası Əlirza Əliyev 1930-cu illərdə Bakının neft mədənlərində işləmiş, sonralar Naxçıvana qayıdıb dəmir yolu stansiyasında çalışmışdı. Anası İzzət xanım evdar qadın idi. Çətin maddi durumda yaşayan bu çoxuşaqlı ailədə valideynlər övladlarının tərbiyəsinə, xüsusən də oxumasına ciddi fikir verirdilər. Tam başqa mühitin yetirmələri olsalar da, Zərifə xanım və Heydər Əliyevin oxşar cəhətləri də var idi ki, onları bir-birinə yaxın edirdi. Hər ikisi mütaliəni sevirdi. Gözəl natiqlik məharətləri var idi, klassik musiqinin isə vurğunu idilər. Dram, opera tamaşalarına getməyi xoşlayar, fitri musiqi istedadları ilə hamını heyran edərdilər. Heç bir musiqi təhsili olmayan Zərifə xanım qarmon və pianoda əsl professional kimi çalırdı. Heydər Əliyevin isə gözəl səsi vardı. İkisi bir yerdə gözəl harmoniya yaradırdı. Sonralar Heydər Əliyevin musiqi duyumuna məftun qalan böyük sənətkar Rəşid Behbudov jurnalist Svetlana Mirzəyevaya verdiyi müsahibəsində bu barədə söyləmişdi: "...Bilirsən o necə oxuyur? Sanki peşəkar məktəb keçmiş müğənnidir...".

Əliyevlər ailəsində belə "konsert"lər tez-tez verilirdi, xüsusən də doğma, yaxın olan insanlar onlara təşrif gətirəndə. Zərifə xanım royalın arxasına keçər, zərif barmaqlarını ağ-qara şirmayi dillərin üzərində gəzdirdikcə Heydər Əliyevi ruhlandırar və o da gözəl səslə oxumağa başlayardı. Bəzən sözləri unudar, Zərifə xanım astaca ona xatırladardı. Bu mənzərəni seyr etmək onların övladlarına da xoş gələrdi. Elə qızları Sevil Əliyevaya da musiqiyə maraq məhz belə gözəl məqamlarda yaranmışdı. 1986-cı ildən musiqi sahəsində fəaliyyətini davam etdirən Sevil xanım bir sıra mahnıların, o cümlədən anası, mərhum akademik Zərifə Əliyevaya həsr etdiyi "Ana" elegiyasının müəllifidir. Təsadüfi deyil ki, Zərifə xanımın yoxluğundan sonra Heydər Əliyev ən böyük təsəllini də Sevil xanımın sevimli anasına həsr etdiyi mahnılarda tapar, "Qayıt əzizim", "Ana" mahnılarını dinləyəndə gözləri yaşarardı:

**Laylay dedin ana, laylay dedin mənə,**
**Həyat verdin mənə, əziz ana**
**Laylan hələ yaşar, laylan ellər aşar,**
**Günəş kimi yana-yana, ana.**

Zərifə xanım atası kimi həkim olmaq arzusunda idi. Elə buna görə də 1942-ci ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuş, 1947-ci ildə institutu əla qiymətlərlə başa vurub mükəmməl bir göz həkimi olmaq arzusu ilə Moskva şəhərindəki Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda ikiillik ixtisasartırma kursunda həkim-oftalmoloq ixtisasına yiyələnmişdi. 1949-cu ildə Vətənə qayıdan Zərifə Əliyeva Azərbaycan Elmi Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi kimi fəaliyyətə başlamış, 1950-ci ildə isə aspiranturaya daxil olaraq praktik fəaliyyətilə yanaşı, elmi axtarışlarını da davam etdirmişdi.

1948-ci il onun şəxsi həyatında daha bir dönüş yaradır. Gənc, yaraşıqlı Heydər Əliyevlə tanışlıq bu gənc qızın şəxsi həyatı barədə düşüncələrini dəyişir, özünü bütünlüklə elmə həsr etməyi qarşısına məqsəd qoyan Zərifə gələcək həyat yoldaşını daha yaxından tanımaq üçün onunla münasibətlərini davam etdirir. Bu tanışlıqdan bir qədər sonra gənc hərbi zabit Heydər Əliyev Leninqrada (indiki Sankt-Peterburq) oxumağa göndərilir, 1950-ci ildə oradan qayıtdıqdan sonra Zərifə xanımla daha sıx-sıx görüşür, ailə həyatı qurmaq barədə ciddi şəkildə düşünürdü. Ancaq mənzil-məişət şəraiti buna imkan vermirdi, o, mənzil almağını gözləyirdi. 1951-ci ildə Əziz Əliyev işdən çıxarılır. Bu xəbərdən dərhal sonra cütlük yenidən görüşür. O zaman Zərifə xanım: "Deyəsən, biz bir daha görüşə bilməyəcəyik, çünki atamı işdən çıxarıblar və ona qarşı siyasi ittiham irəli sürüblər. Sən isə dövlət təhlükəsizliyi orqanlarında işləyirsən və bu, sənə zərər gətirə bilər. Odur ki, deyəsən, bizə birlikdə olmaq qismət deyilmiş", - deyə ilk növbədə Heydər Əliyevi qorumağa çalışır. Təbii ki, hər şeyi göz önünə alan Heydər Əliyev ona etirazını bildirir və münasibətlərini davam etdirir. 1952-ci ildə ikiotaqlı mənzillə təmin olunan Heydər Əliyevə Əziz Əliyevin ailəsilə ünsiyyətdə olmaq da qadağan edilir. Dəfələrlə işdən çıxarılacağı barədə ciddi xəbərdarlıqlar almasına rəğmən o, gizlin-gizlin olsa da, Zərifə xanımla görüşlərini davam etdirir. O ərəfədə Əziz Əliyevin bütün ailə üzvləri izlənilir, ailəsini sürgün etdirmək üçün bəhanələr axtarılırdı. 1953-cü ilin martında Stalinin ölümü bu iki gəncin qarşısındakı maneələrin aradan qaldırılmasına zəmin olur. 1954-cü ildə Əziz Əliyev əvvəlki işinə, Ortopediya və Bərpa Cərrahiyyəsi İnstitutunun direktoru vəzifəsinə geri qaytarılır. 1954-cü il noyabrın 8-də xoşbəxt bir ailənin təməli qoyulur.

2020-ci il noyabrın 8-də Şuşanın azad edilməsi münasibətilə xalqımıza müraciətini heyranlıqla dinləyən Sevil xanım Əliyeva öz paylaşımında yazırdı: "Mən də inanılmaz sevinc yaşayıram, çünki bu gün ailəmiz üçün xüsusidir - bu gün valideynlərimiz - Zərifə və Heydər Əliyevin toy günüdür. Qardaşım -

Azərbaycan Prezidenti İlham Əliyevə bu müqəddəs tarixi bizim üçün belə böyük bir hadisə - Şuşanın azad edilməsi ilə qeyd etdiyinə görə hədsiz dərəcədə minnətdaram. Hamımızı təbrik edirəm".

Hər güclü kişinin arxasında güclü bir qadın dayanır, deyirlər. Əliyevlər ailəsinin kötüyündə də belə bir qadın - Zərifə xanım vardı. Gənc yaşlarından həyatını dövlət işi ilə bağlayan Heydər Əliyev Zərifə xanımın timsalında özünə əsl köməkçi tapmışdı. Zərifə xanım ailədə yüksək mənəvi mühit yaratmış, onu xoşbəxt etmişdi. Ömür-gün yoldaşının doğum gününü müqəddəs, xoşbəxt gün adlandıran Heydər Əliyev deyirdi: "...Çünki bu gün Zərifə xanım kimi böyük bir insan Yer üzünə gəlib, mənim həyatımı xoşbəxt edib, mənə gözəl övladlar bəxş edib". Bu, doğrudan da belə idi, Zərifə xanım övladlarına yüksək mənəvi əxlaq, liderlik, vətənpərvərlik kimi keyfiyyətlər aşılayırdı. Prezident İlham Əliyevin anası haqqında səsləndirdiyi bu fikirlər də Zərifə xanımın göz önündə həmişə canlanan portretinə vurulan incə cizgilər kimi çox əhəmiyyətlidir: "Mənim anamın həyat fəlsəfəsinin köklərini, hər şeydən əvvəl, onun uşaqlığında axtarmaq lazımdır. O, bizə tez-tez deyərdi ki, uşaqlıq insan həyatının çox mühüm dövrüdür və heç nə bu dövrü əvəz edə bilməz. Uşaqlıq insanın ömrü boyu təkrar-təkrar müraciət etdiyi dünyadır. İnsan xeyirxahlığın, şəfqətin nə olduğunu uşaqlıqda dərk edir. O, çox xoşbəxt uşaq olub, uşaqlıq onun yaddaşında məhəbbət və əziz xatirələr mənbəyi kimi qalmışdı. Bizimlə keçirdiyi son günlərdə Zərifə xanım bilirdi ki, ömrü sona çatır, özü də, bütün həkimlər də tam açıq danışırdılar, üstüörtülü danışıqlardan uzaq idilər. Onun ürəyi elə işıqlı qalırdı. Ölüm fikri onu qorxutmurdu. Onu narahat edən onsuz qalacaq adamlar idi. Gücdən, qüvvədən düşmüşdü. Bütün ömrü boyu olduğu kimi, səssiz bir məğrurluqla əriyirdi. Ölümü də ona həyatı kimi dərin hörmət gətirdi. O, çox gözəl başa düşürdü ki, əbədiyyət qarşısında hər şey kiçikdir, müvəqqətidir, qalan ancaq yaxşılıqdır. Onu sakitləşdirən məhz bu idi".

Zərifə xanım sevməyi də, sevgisini bölüşməyi də çox gözəl bacarırdı. Bir dəfə Heydər Əliyevin Rusiya telejurnalisti Oksana Puşkina ilə söhbətində onun sualına cavab olaraq dediyi: "Bilirsiniz, Zərifə xanım, sözün həqiqi mənasında, dostum idi. Mənim yolumda həyatını qurban verməyə hazır idi. Bəli, bəli, məhz dediyim kimi: həyatını qurban verməyə hazır idi..." sözləri dünyaşöhrətli siyasi liderin həyat yoldaşına verdiyi yüksək dəyərin, qarşılıqlı böyük sevginin ifadəsi idi. Zərifə xanım Heydər Əliyev şəxsiyyətinin miqyasını bəlkə də hamıdan yaxşı dərk edir, bütün həyatı boyu onu göz bəbəyi kimi qoruyur, məhz bu səbəbdən də ev, uşaq, məişətlə bağlı bütün qayğıları üzərinə götürürdü. Hər zaman onun barəsində düşünürdü.

Bir dəfə Moskvadan Bakıya uçan təyyarədə yaranmış texniki nasazlıqlar üzündən baş verə biləcək böyük faciədən möcüzə nəticəsində sağ qalan Zərifə xanım illüminatordan baxanda gördüklərini, o dəhşətli anları sonralar xatırlayaraq deyirdi: "Uçuş zolağına yüksək sürətlə yanğınsöndürən maşınların, təcili yardım karetlərinin gəldiyini görürük. Hər dəqiqə fəlakət baş verə biləcəyini anlayıram. Beynimdə isə yalnız bir fikir dolaşır: bu barədə Heydər Əliyeviçə necə məlumat verəcəklər və dəhşətli xəbəri eşidəndə onun vəziyyəti necə olacaq, - deyə düşünürdüm". Bu hisslərin səmimiliyi insanı heyrətə gətirir. Həyatı tükdən asılı olan bir xanımın öz aqibəti barəsində deyil, həyat yoldaşının dəhşətli itkiyə necə tab gətirəcəyi haqda düşünürdü... Heydər Əliyev isə başqa bir təyyarə ilə Bakıya qayıdan Zərifə xanımı hava limanında gül-çiçəklə qarşılamağa gəlmişdi.

Zərifə xanım bu həyatdan, sevdiklərindən, onu sevənlərdən çox tez ayrıldı. Cəmi 62 il yaşadı, onun da son 2 ilini ağır xəstəliklə mübarizədə keçirdi. Ölümündən bir gün əvvəl, axşamçağı ömür-gün yoldaşına bir məktub vermişdi. Məktub bu sözlərlə bitirdi: "Məndən ötrü narahat olma, uşaqlara yaxşı bax və həmişə yadında saxla ki, səni çox sevirəm". Bu güclü, həyat dolu, sevgi dolu insanın ölümündən bir neçə saat sonra xəstəxana işçiləri Heydər Əliyevə salfet kağızına bükülmüş bir cüt sırğa gətirmişdilər. Bu sırğa onun toy hədiyyəsi idi və Zərifə xanım həyatının sonuna qədər onu talisman kimi saxlamışdı. Heydər Əliyev bu anları hər dəfə ürəkağrısı ilə xatırladı. Gəlinləri Mehriban xanım o günü belə xatırlayır: "O, hönkür-hönkür ağlayırdı. Belə hal yalnız bir dəfə olmuşdu və mənzərə çox dəhşətli idi". O, təkcə sədaqətli həyat yoldaşını deyil, yaxın sirdaşını, dostunu itirmişdi.

Zərifə xanım ilk əmək fəaliyyətinə çətin bir dövrdə başlamışdı. İkinci Dünya müharibəsi təzəcə qurtarmışdı, dağıntıları bərpa etmək lazım idi. İşçi qüvvəsi, o cümlədən həkim çatışmırdı, tibbi xidmətin keyfiyyəti aşağı səviyyədə idi. Həmin dövrdə Azərbaycanda gözü zədələyən, ağır nəticəyə, hətta korluğa da səbəb olan traxoma infeksion xəstəliyi geniş yayılmışdı. O, bu xəstəliklə mübarizəyə qalxmış, yorulmaq bilmədən çalışırdı. 1968-ci ildən başlayaraq, elmi fəaliyyətinin çox hissəsini professional oftalmologiyanın problemlərinin öyrənilməsinə həsr etmiş, dünyada ilk dəfə olaraq peşə patalogiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaratmış, praktiki olaraq elm aləmində yeni bir istiqamətin - peşə oftalmologiyasının əsasını qoymuşdu. 1976-cı ildə Q.Helmqolts adına Moskva Göz Xəstəlikləri İnstitutunda "Azərbaycanın kimya sənayesinin bəzi müəssisələrinin işçilərinin görmə üzvünün vəziyyəti" mövzusunda doktorluq dissertasiyası müdafiə edən Zərifə Əliyevaya 1977-ci ildə tibb elmləri doktoru elmi dərəcəsi adı verilmişdi. Görmə orqanının peşə patalogiyası sahəsində apardığı elmi-tədqiqat işlərinin uğurlu nəticələrinə görə

akademik Zərifə Əliyeva keçmiş SSRİ-nin oftalmologiya sahəsində ən mötəbər mükafat olan SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülmüş, həmin dövrdə bu mükafatı alan ilk qadın alim kimi adı oftalmologiya elminin tarixinə düşmüşdü.

O, gənc həkimlərin tərbiyəsinə, onların peşə fəaliyyətilə bağlı problemlərinin öyrənilməsinə, həllinə xeyli zəhmət sərf etmişdi. "Yüksək etimad" adlı kitabı cəmiyyətdə həkimin şəxsiyyət kimi formalaşması prosesinə dəyərli töhfə idi. Zərifə xanım həkim-oftalmoloqların böyük bir nəslini yetişdirmiş, zəngin həyat təcrübəsini tələbələrilə bölüşmüş, onlara diqqət və qayğı ilə yanaşmışdı. Bu böyük, sadə insan həkimin peşə mövqeyini onun xəstəyə münasibətini müəyyənləşdirən başlıca amil kimi dəyərləndirərək deyirdi: "Yalnız o şəxs əsl həkimdir ki, xəstənin ağrılarını məhz özünün ağrıları hesab edir. Belə bir həkim üçün hər dəfə xəstəni qəbul etmək, hər dəfə xəstəliyə düçar olmuş insanla söhbət etmək həm xəstə qarşısında, həm də cəmiyyət qarşısında, ən başlıcası isə öz vicdanı qarşısında əxlaqi məsuliyyət deməkdir".

Zərifə xanım qaranlıq gözlərə nur payladı, könülləri xeyirxahlıq şəfəqinin şölələri ilə işıqlandırdı, bir həkim, həyat yoldaşı, ana kimi sevildi, sevib-sevdiyi bir insanla yaşadığı ömrü nağıla döndü, bu sevgi nəğməyə döndü:

**Ana, səsin aydın səhər olar,**
**Ana, qəlbin keşik çəkər bizə.**
**Yolum üstə uzaq səfər olar,**
**İşıq olar nurdan düşən gözə...**